# Böyük aksiyanın doğurduğu dörd reallıq

## *Azərbaycanın hədəfi, Rusiyanın mənafeyi və Qərbin məqsədi*

**Azərbaycanlı fəalların Laçın–Xankəndi yolunda keçirdikləri aksiya 2020-ci ilin 10 noyabr üçtərəfli Bəyanatından sonra Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi, eləcə də Qarabağ məsələsi müstəvisindəki bir sıra reallıqları aşkara çıxardı. Aksiya, sanki katalizator rolunu oynadı və ona görə indidən onun faydalı olduğuna dair yekun rəyə gəlmək mümkündür. Şübhəsiz, aksiyanın bilavasitə qarşısına qoyduğu məqsədə çatması daha önəmlidir. Yəni Qarabağda ekoloji terrrora son qoyulmalı, ölkəmizin ekspert və mütəxəssislərinin, dövlət qurumlarının təmsilçilərinin faydalı qazıntı yataqlarına yolu açılmalıdır.**

**(ardı 4-cü səhifədə)**

# Böyük aksiyanın doğurduğu dörd reallıq

*(əvvəli 1-ci səhifədə)*

Ekoloji terrordan söz düşmüşkən, aksiya göstərdi ki, ekologiya dünyanın vecinə deyil, beynəlxalq ictimaiyyət, böyük ölçüdə, ona da siyasətin tərkib hissəsi kimi baxır. Halbuki siyasət bir kənara qoyulmalı və Azərbaycanın konkret tələbi üzrə hərəkət edilməliydi. Belə olsaydı, meydana başqa mətləblər çıxmazdı.

Eyni zamanda, bir daha sübut olundu ki, haqqında söz açılan “Qızılbulaq” qızıl və “Dəmirli” mis-molibden mədənləri daxil olmaqla, digər faydalı qazıntı yataqları Qarabağdakı separatçı rejimin saxlanmasına xidmət edir. Yəni, faktiki olaraq, məsələyə düzgün qiymət verilməməsi cəhdləri göstərir ki, Cənubi Qafqazda separatçılığı dəstəkləyən qüvvələr var və onlar fəaliyyətdədirlər.



***

İkinci məqam. 2018-ci ildə Nikol Paşinyan hakimiyyətə gələrkən ümidlər var idi ki, yeni iqtidar Ermənistanın iqtisadiyyatı, sosial həyatı ilə yanaşı, cəmiyyətin xəstə təfəkkürünə də əl gəzdirəcək. Məlumdur ki, Paşinyan baş nazir seçilməzdən öncə Qarabağın Ermənistan üçün lazımsızlığı məntiqindən, ziyanlı tərəflərindən bəhs edirdi.

Digər tərəfdən, bildirməyə ehtiyac var ki, Paşinyanın hakimiyyətə yiyələnməsinə, ümumiyyətlə, Ermənistandakı sistem dəyişikliyinə məhz Qarabağ klanının təmsilçiləri olan Koçaryan–Sarkisyan cütlüyünə qarşı ölkə əhalisinin bəslədiyi nifrət səbəb olmuşdu. Nikol Qərbin köməyi ilə bu nifrəti düzgün yönləndirməyi bacarmışdı. Onun imkanı var idi ki, iqtidar postuna əyləşən kimi köhnə Qarabağ ritorikasını dəyişdirib, Ermənistan üçün tamamilə yeni bir kurs müəyyənləşdirsin. Bəs, Paşinyan nə etdi? Əvvəl, Azərbaycan Prezidentinə müraciət edərək, daxildəki problemləri yoluna qoymaq üçün vaxt verməsini istədi. Bu, İrəvanın yeni siyasi rəhbərliyinin konstruktiv mövqe tutacağına əminlik yaratdı.

Ancaq sonradan Paşinyan tamamilə fərqli yol tutdu. O, davranışları ilə Qarabağ üzrə danışıqlar prosesini dalana dirədi, eyni zamanda, Azərbaycanı təxribata çəkən fikirlər səsləndirdi. Ən əsası isə yeni işğal planları qurmağa başladı. Beləliklə, özünün hakimiyyətə gəlməsində başlıca amil sayılan ritorikadan – Qarabağla bağlı ədalətli yanaşmadan uzaq durdu. Nəticədə 44 günlük müharibə baş verdi ki, bu savaşın nəticələri Ermənistan üçün fəlakət reallığını doğurdu.

Müharibədən sonra da ümid edilirdi ki, Ermənistan cəmiyyəti özünün xəstə baxışından uzaqlaşacaq. Bununla bağlı işartılar Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın və onun müşaviri işləmiş Jerayr Liparidyanın fikirlərində özünü göstərirdi. Onlar keçmişə ekskurs edərək, Qarabağın Azərbaycana məxsusluğu fikrini qabardır və bunun dünya birliyi tərəfindən də qəbul olunduğunu, özlərinin iştirak etdiyi danışıqlar prosesindəki uğursuzluqları anladırdılar.

Bu sayaq fikirlər erməni cəmiyyətində müəyyən yumşalmalara gətirib çıxarırdı. Yada salaq ki, 2021-ci ildə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşləri gedərkən, Paşinyanın rəhbərlik etdiyi hakim Vətəndaş Sazişi Partiyasının rəhbər şəxsləri ilə Liparidyanın görüşü keçirilmişdi. Özü də həmin görüş, məhz, baş nazirin təşəbbüsü ilə baş tutmuşdu. İkincilər eks-müşavirdən Türkiyə və Azərbaycanla barış tezislərinin təbliğini xahiş etmişdilər.

Liparidyan həmin görüşdə bildirmişdi ki, ermənilər, xüsusən də müharibədən sonra heç bir rola malik deyillər, onlar hansısa tələblər irəli sürə bilməzlər. Ölkənin mövcudluğu üçün yeganə variant Türkiyə–Azərbaycan tandemi ilə anlaşmaq və münasibətlər qurmaqdır. Eks-müşavir, eyni zamanda, Qarabağa status məsələsini qaldırmağın yanlışlığını, güzəştin qaçılmazlığını, ”yol” və “dəhliz” anlayışları arasında hansısa ortaq həllin tapılmasının vacibliyini diqqətə çatdırmışdı. O həmçinin özünün işlədiyi dövrdə də torpaqların geri qaytarılmasının zəruriliyindən söz açmışdı. Ermənistandakı “Hraparaq” nəşrinin yazdığına görə, Paşinyanın tərəfdarı olan deputatlar Liparidyandan Ter-Petrosyanın niyə bu məsələni vaxtında həll etmədiyini soruşanda, cavab vermişdi ki, silahdaşları, daha doğrusu, Vazgen Sarkisyan (ovaxtkı müdafiə naziri – red.) buna imkan verməyib.

Bəli, hazırda Brüssel danışıqları iflasa uğrayıb, onun gəldiyi konstruktiv nəticələr ortada yoxdur. Laçın–Xankəndi yolundakı aksiyadan sonra, hazırda Avropa vasitəçiliyinin hansı ampluada bölgəyə nüfuzu məsələlərindən söz açacağıq. Hələlik isə mətləbdən uzaqlaşmayaq və bildirək ki, azərbaycanlı fəalların etiraz nümayişi Liparidyanın vaxtilə təlqin etdiyi konstruktiv fikirlərin Ermənistan cəmiyyətində aktual olmadığını göstərir. Bunu edən isə Paşinyandır. Onun tərəfdarlarının Laçın–Xankəndi yolundakı aksiyaya etiraz etmələri, Qarabağ ermənilərinin, guya, blokadaya alındığına dair fikirləri qabartmaları, bu fonda “Artsax xalqı” şüarları səsləndirmələri onu göstərir ki, erməni cəmiyyəti özünü separatizm xəstəliyindən müalicə edə bilməyəcək dərəcədə iflicdir.

***

Üçüncü məqam. Söhbət az öncə haqqında söz açdığımız Brüssel danışıqlarından gedir. Məlumdur ki, Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan və Ermənistan liderlərinin Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşündə iştirak etməsi və ondan sonra səsləndirdiyi təxribatçı fikirlər sonuncunun həmin vaxtadək reallaşdırdığı missiyanı heçə endirdi. O da məlumdur ki, Paşinyan dekabrın 7-də keçirilməli olan növbəti Brüssel raunduna Makronun qatılmasını şərt kimi irəli sürdükdən sonra danışıqlar tam şəkildə iflasa uğradı.

Laçın–Xankəndi yolundakı aksiyanın getdikcə vüsət alması fonunda biz Avropa İttifaqı vasitəçiliyinin, yəni Qərb vasitəçiliyinin özünü fərqli formada göstərdiyinin şahidiyik. Belə nəticəyə gəlmək mümkündür ki, Aİ Şarl Mişelin missiyasında bir cür idi, missiya başa çatdıqdan sonra başqa cür oldu. Bu isə onu deməyə əsas verir ki, hazırda qurum bütövlükdə Makronun diktəsi altındadır.

Fransa Prezidenti danışıqlar prosesinə yeni reallıqlar sırımağa cəhd göstərdiyi kimi, hazırda eyni fəaliyyəti Aİ həyata keçirməkdədir. Diqqət yetirək, oktyabrın 6-da Praqada keçirilmiş İlham Əliyev – Şarl Mişel – Nikol Paşinyan – Emmanuel Makron dördtərəfli görüşündə Aİ-nin regiona 40 nəfərdən ibarət missiyasının göndərilməsi razılaşdırılmışdı. Yəni buna Azərbaycan da razılıq vermişdi, baxmayaraq ki, ölkəmiz həmin missiyanın sərhədin Azərbaycan tərəfində fəaliyyət göstərməsinə lüzum görməmişdi.

Sözügedən missiyanın fəaliyyət müddəti başa çatdıqdan sonra, Aİ-nin xarici siyasət məsələləri üzrə komissarı Jozef Borrel müddətin uzadılmayacağını bildirmişdi. Lakin bir neçə gün əvvəl həmin Borrel Aİ-nin Ermənistan–Azərbaycan sərhədinə müddətsiz monitorinq missiyası göndərmək niyyətini açıqladı. Üstəlik, Çexiyanın Ermənistana yeni təyin edilmiş səfiri Petr Pirunçikin sözlərindən belə çıxır ki, missiya səfərlər və təmaslar vasitəsilə tərəflər arasında etimadın formalaşmasına kömək etməyi qarşısına məqsəd qoyub.

Deməli, Aİ öldükdən sonra dəfni də reallaşmış ATƏT-in həmsədrlik institutunun, obrazlı desək, ekshumasiyası barədə düşünənlər var. Onlar ölü qurumda hansısa sağ hüceyrə tapmağa girişiblər. Yada salaq ki, Minsk qrupunun üzvləri də illərlə səfərlər gerçəkləşdirdilər, ancaq sonda bir nəticəyə gəlmədilər.

Belə görünür, Qərb köhnə üsulu yenidən gündəmə gətirmək və bununla da vaxtı udmaq istəyir. Bəli, vaxtı Ermənistan üçün udmağı düşünür. Lakin azərbaycanlı fəalların Laçın–Xankəndi yolundakı aksiyası yeni, üzərindən keçilməsi mümkün olmayan reallıqlar doğurduğundan, Aİ artıq Azərbaycandan soruşmadan, birtərəfli fəaliyyətə üstünlük verir. Müddətsiz monitorinq missiyasının siyasi anlamı budur.

Bəli, Aİ-nin bu cür davranışı sülh prosesinə ziddir. Bir daha deyək ki, belə yanaşma birbaşa Fransa Prezidenti E.Makronun sifarişidir. Makron Aİ-ni ermənipərəstliyin tribunasına çevirir ki, nəticə etibarilə bu, bütövlükdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesindəki Qərb qanadına böyük zərbədir. Bəri başdan demək mümkündür ki, Qərb ədalətli yanaşma prizmasından uzaqdır.

Danışıqlar müstəvisində Şarl Mişelin vasitəçiliyi ilə keçilmiş yolun heçə sayılmasının, yeni reallıqlar formalaşdırmaq cəhdinin yolverilməzliyi aşkardır. Nəzərə alaq ki, əslində, azərbaycanlı fəalların Laçın–Xankəndi yolunda davamlı aksiya keçirmələrinin kökündə duran səbəb də elə bu idi. Ölkəmizin mütəxəssislərinin və dövlət qurumları nümayəndələrinin bölgədə ekoloji terrorun qarşısının alınması naminə iş aparmaq istəklərinə yol verilməməsi, onların əraziyə buraxılmaması da elə bu reallıqdan xəbər verirdi. Aksiya ətrafındakı söz-söhbətlər belə mənzərə formalaşdırırdı ki, kimlər üçünsə Qarabağ Azərbaycanın torpağı yox, ayrıca ərazi vahididir. Bəli, aksiya bu ziyanlı düşüncələrə, belə demək mümkünsə, çılpaqlıq gətirdi.

Dördüncü məqam. Laçın–Xankəndi yolundakı aksiya Azərbaycan–Ermənistan münasibətlərini, Qarabağ məsələsi kontekstində, bütövlükdə, Cənubi Qafqaz regionu üzrə bir-birinə zidd mövqedə dayanmış qütblərin maraq və mənafelərini də üzə çıxarmış oldu. Əslində, bu durumun aspektlərinə yuxarıda müəyyən qədər, aydınlıq gətirdik. Vacib cəhət budur ki, artan həyəcan Rusiyaya qarşı yönələn və kifayət qədər idarə olunan mütəşəkkil proses təsiri bağışlamaqdadır. Heç, şübhəsiz, prosesə rəhbərliyi həyata keçirən Fransadır. Təbii, ondan faydalanmaq istəyən qüvvələr də var. Məsələn, ABŞ. Ancaq Vaşinqton Paris kimi canfəşanlıq etmir. Ümumən, məsələ şişirdilir. Şişirdilir ki, Moskva Cənubi Qafqazdan uzaqlaşdırılsın. Bu baxımdan Ermənistanın üzərinə, belə demək mümkünsə, mənəvi sərmayə qoyulur. İrəvanın əlindən gələn isə daxildə Rusiya əleyhinə aksiyalar təşkil etmək, ölkənin Qarabağdakı sülhməramlılarını fəaliyyətsizlikdə qınamaqdır.

Hazırda Ermənistanda Rusiya sülhməramlılarının BMT sülhməramlıları ilə əvəzlənməsi sədaları da eşidilməkdədir. İrəvan bu yolla hazırkı status-kvonu qorumağa, danışıqlardan yayınmağa, ən əsası isə Qarabağdakı separatçı rejimin varlığını sürdürməsinə zəmin yaratmağa cəhd göstərir. Humanitar fəlakət məntiqinin və digər sentimental epizodların qabardılması, mövcud xüsusda Azərbaycanla bağlı antipatiya yaratmaq cəhdləri məhz buna xidmət edir.

Bəli, Ermənistan, var gücü ilə çalışır ki, bölgədə yeni – Rusiyasız reallıqlar formalaşsın. Demək olmaz ki, Moskva indiki durumda ədalətli olduğu üçün onu uzaqlaşdırmaq niyyətləri var. Kreml illər ərzində də bölgəyə, xüsusən də Azərbaycanın haqq işinə obyektiv münasibət göstərməyib, bu, öz yerində. Hazırkı vəziyyəti şərtləndirən cəhət budur ki, Rusiyanın obyektiv yanaşması onun özünə də lazımdır. Onun bu yanaşması isə ancaq artan gərginliklər fonunda mümkündür. Moskva beynəlxalq aləmə açıq şəkildə “əgər, kimsə Cənubi Qafqaza gərginlik gətirib yeni oyun qaydaları qoymağa çalışacaqsa, unutmasın ki, bu işin ən yaxşı bacaranı mənəm” – mesajını verir.

Azərbaycanlı fəalların aksiyası bir yana, Laçın–Xankəndi yolunu bağlayan, faktiki olaraq Rusiyadır. O Rusiya ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının İrəvan sammitində Paşinyan tərəfindən son dərəcə ciddi hörmətsizliklə üzləşdi. Bu gün İrəvan küçələrində Moskvaya qarşı hörmətsizlik bir yana, təhqir, qəzəb, hiddət şüarları səslənməkdədir. Bunun sifarişçilərinin də kim olduğu aydındır. Fransa Prezidenti Makron bir müddət öncə əbəs yerə bildirməmişdi ki, Rusiya müttəfiqi olan Ermənistanın mövqeyini satıb.

Ermənilərin gözündə Kreml satqındır. Təbii ki, illərdir Rusiyanın köməyi ilə ayaqda qalan, Qarabağı işğalda saxlayan Ermənistanın 2018-ci il inqilabı ilə Qərbpərəst Paşinyanı hakimiyyətə gətirməsi Moskva üçün necə bir satqınlıqdır, o, söhbətin başqa tərəfidir. Hələlik, əsas məsələ budur ki, Qərb Rusiyanı bölgədən sıxışdırmaq üçün, bir növ, qol çırmayıb. Amma o da görünür, bu istək üçün, böyük ölçüdə, qabağa verilən yalnız Fransadır. Onun isə təsir rıçaqları həm yoxdur, həm də o rıçaqları işə salmaq istəkləri Azərbaycan amili səbəbindən uğur qazanmır. Paris, sanki digər ermənipərəstlərlə əlbir olub prosesi bir yerə qədər gətirib çıxarır, ancaq konkret nəticə yoxdur.

***Ə.CAHANGİROĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 22 dekabr.- S.1;4.